ULDUZ QULİYEVA
*AMEA-nın Tarix İnstitutunun dissertantı*

# AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ ELMİ VƏ MƏDƏNİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA SUMQAYIT ŞƏHƏR POTENSİALININ ROLU
*(I məqalə)*

Müstəqillik əldə etdikdən sonra ölkəmizin qarşısında duran ən vacib məsələlərdən biri onun müstəqilliyini qoruyub saxlamaq olmuşdur. Ümumilli liderimiz Heydər Əliyevin ciddi cəhdləri nəticəsində nəinki buna nail olunmuş, hətta siyasi, iqtisadi, sosial mədəni sahələrdə islahatların əsası qoyulmuşdur ki, bu siyasət bu gün prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, Azərbaycan özünün sosial iqtisadi inkişafının yeni mərhələsini yaşayır.

Ulu öndərimizin sözləri ilə desək, kiçik bir Azərbaycan olan Sumqayıtda da bu gun iqtisadi inkişaf gedir, abadlıq, quruculuq işləri genişlənir, sosial sahəyə diqqət artır. Heç şübhəsiz ki, yaratdığımız yeni, müasir cəmiyyətin də mütərəqqi təhsili olmalıdır, dünya təhsilinə inteqrasiya etməlidir. Təhsil cəmiyyətin inkişafına təkan verməli, cəmiyyət isə təhsilə diqqət, qayğı göstərməlidir. Təhsili cəmiyyətdən, cəmiyyəti isə təhsildən kənarda təsəvvür etmək mümkün deyildir, onların biri digərinə şərait yaratmaqla paralel inkişaf etməlidir.

Mütərəqqi düşünən hər kəsə aydındır ki, müasir cəmiyyətdə təhsilimiz dünyanın aparıcı ölkələrinin qabaqcıl təcrübələrini yerli şəraitimizə uyğunlaşdıraraq, inqilabi yox, təkamül yolu ilə inkişaf etməli, fəaliyət göstərməlidir.

Məktəb müasir tələblərə cavab verməklə, tam təmin olunmalı, informasiya və kommunikasiya texnologiyaları ilə təchiz olunmalıdır.

Bununla belə, bəzi bağçalarımızın beynəlxalq layihələrə qoşulması bu sahədə inkişafa təkan verəcəkdir. Məktəbəqədər tərbiyə müəssisələrindən 11,20,30,40 saylı uşaq bağçaları SOROS fondunun «Addım-addım» prqramı ilə işləməyə başlamış 30,40,63,66 saylı bağçalar İnkuliziv-inteqrasiv pilot liyihəsinə, 47 saylı uşaq bağçası YUNİSEF-in «Yuva» humanitar təşkilatının iştirakı ilə «Erkən uşaqlıq dövründə qayğı və inkişaf texnologiyası» prqramına qoşulmuşdur.

Şəhər Təhsil Şöbəsi bir sıra beynəlxalq təşkilatlarla Açıq Cəmiyyət İnstitutu Yardım Fondu, Norveç Qaçqınlar şurası, YUNESKO-nun «Assosiativ məktəb layihəsi», UNİSEF-in «Ümidli gələcək», «Azərbaycan gənclərinin nailiyyəti», BMT-in İnkişaf Proqramı, ABŞ-ın Dövlət Departamentinin Təhsil və Mədəniyyət Bürosunun Proyekt Harmoniya Təşkilatı, Amerika Birləşmiş Təhsil Şurası, Beynalxalq Qırmızı Xaç və s. müəyyən praqramların həyata keçirilməsində birgə fəaliyyət göstərir və əlaqələri genişləndirir. Müasir təlim texnologiyalarının tətbiqi ilə bağlı müntəzəm olaraq treninqlər keçirir. (3;s 1)

Son 5 ildə 34 nəfər müəllim 1999-2004cü illərdə Amerika, Almaniya, İngəltərə, Yaponiya, Fransa, Polşa, Misir kimi dövlətlərin təhsil proqramlarına qoşulmuş, bu proqramlarda fəal iştirak edərək qalib gəlmiş və həmin ölkələrin təhsil müəssisələrində təcrübə keçmişlər.(9; s 5)

Sumqayıt şəhərində fəaliyyət göstərən məktəblərdən bir neçəsi elmi əlaqələrdə xüsusilə seçilirlər. Məsələn 14 saylı məktəb xarici ölkələrlə daha geniş təhsil əlaqələri qurur. Belə ki, müstəqilliyimiz elan olunandan bir neçə il sonra yəni 1996-cı ildə məktəbin məzunu Ələkbərova Aliyə Sorus xətti ilə ABŞ-da bir illik təhsil alıb. Məktəb 2000-ci ildə YUNESKO-nun Asssosiativ məktəblər şəbəkəsi layihəsində fəal iştirak edib. 2000-

ci ildə Almaniyada alman dili müəllimləri üçün təşkil olunmuş treninqdə məktəbin alman dili müəllimi Qəhrəmanova Jalə iştirak etmişdir. (4; s 2)

2001-ci ildə Amerika Şurası tərəfindən təşkil olunmuş ingilis dili müəllimləri üçün «Təhsildə yüksək mükafat» proqramında iştirak edən Bağırova İrina I turun qalibi olmuşdur.

2002-ci ildə 14 saylı məktəbin ərəb dili müəllmi Kərimova Fatma Misirdə Ərəb dili müəllimləri üçün mübadilə prqramının iştirakçısı olmuşdur.

2002-ci il iyunun 14-dən avqustun 8-nə kimi respublikamızın təhsil işçilərini təmsil edən bir qrupp nümayəndə heyəti Təhsil və Dilin öyrənilməsi üzrə Amerika Əməkdaşlıq Şurası (ASSELS) tərəfindən həyata keçirilən «Tədrisdə yüksək mükafat» proqramında iştirak etmişlər. Onların içərisində 2 nəfər ingilis dili müəllimi şəhərimizi təmsil etmişdir ki, onlardan da biri 14 saylı Orta məktəbin müəllimi Gülxar Aslanova olmuşdur. Digəri isə TTEL-dən Sevər Sidəxanova olmuşdur. Onlar 56 gün respublikamızın nümayəndə heyətinin tərkibində ABŞ-da pedaqoji təcrübə mübadiləsində olmuşlar. Yuxarıda qeyd etdiyimiz proqramın məqsədi keçmiş SSRİ dövlətləri və Amerika müəllimləri arasında təhsil sahəsində fikir mübadiləsi aparılması, tədrisdə olan yeniliklər və problemlərin qarşılıqlı surətdə öyrənilməsindən ibarət idi. Vaşinqtonun tədris ocaqlarına ekskursiyalar təşkil olundu və müəllimlərlə görüşlər, müzakirələr keçirildi. (5; s 3)

2003-cü ildə 14 saylı məktəb «Procekt Harmony» layihəsinin iştirakçısı olmuşdur.

2004-cü il mart ayında Britaniya şurası tərfindən elan olunmuş «Leso» layihəsi ilə əlaqədar Böyük Britaniyada treninqdə ingilis dili müəllimi Bağırova İrina iştirak etmişdir.

Bundan başqa 2004-cü ildə UNESCO-nun xətti ilə Gürcüstanda təhsil yenilikləri ilə bağlı təşkil olunmuş seminarda 14 saylı məktəbin müəllimi Qəhrəmanova Jalə iştirak edib.

2004-cü il dekabr ayında 14 saylı məktəbin nümayəndəsi Gürcüstanda təşkil olunmuş konfransda çıxış etmişdir.

Bundan başqa 15 saylı məktəb də xarici əlaqələrdə xüsusilə seçilir. Bu məktəb öz xarici əlaqələrini əsasən Almaniya ilə qurur.

1988-ci ildə Azərbaycanda Alman dili müəllimləri ittifaqı yaradılmışdır.

1998-ci ildə Frankfurtun Höte İnstitutunun dəvəti ilə 15 saylı məktəbin alman dili müəllimi Leyla Qasımova Almaniyada olmuş, Karl Boş adına gimnaziyada olmuşdur.

Şəhərimizin 15 saylı məktəbi AFR-in Lüdviqshafen şəhərinin Karl Boş adına gimnaziyası ilə elmi əlaqədar qurur. Bu gimnaziya hal-hazırda da 15 saylı məktəbin almandili dərslikləri ilə təmin olunmasına yaxından köməklik edir. 15 saylı məktəbdə alman dilini tədris edən müəllimlər 1998-2005-ci illərdə dəfələrlə dost diyarda olmuş, pedaqoji təcrübələr keçmiş, alman təhsil sistemi ilə yaxından tanış olmuşlar. Məktəbin Karl Boş adına gimnaziya ilə əlaqələri dərslərin daha keyfiyyətli alınmasına köməklik edir. (2; s 3- 4)

15 saylı məktəbin pedaqoji kollektivinin istəyi ilə 1999-cu ilin sentyabr ayından məktəbdə Almaniyanın Dortmunt şəhərinin sakini, alman dili müəllimi, Boxum universitetinin məzunu Eberhard Kirhoft müqavilə əsasında müəllim işləmişdir. Məktəbin alman dili ilə bağlı xüsusi proqramı vardır və E. Kirhoft XI və VII siniflərdə həmin proqramla dərs. keçmiş, şəgirdlərə xüsusi sertifikat vermişdir.

15 saylı məktəb Karl Boş gimnaziyasının nümayəndələrindən başqa Teodr Xoys adına gimnaziyasının nümayəndələri ilə də əməkdaşlıq edirlər. 2002-ci ilin may ayında 15 saylı məktəbin VII$^{A}$ sinfində təhsil alan Rövşən Xəlilov Almaniya səfirliyinin təşkil etdiyi bədii qiraət müsabiqəsində yüksək nəticə göstərərək birinci yerə çıxmışdır. 2002-ci ilin yayında AFR-in Azərbaycandakı Səfiri Klaus Qreorlixt və onun xanımı Sumqa-

yıtda 15 saylı məktəbdə olmuşdur. Səfirin xanımı 15 saylı məktəbin I sinif şagirdlərinə kitab, dəftər, qlobus bağışlamışdır.

Sumqayıt Özəl Türk Liseyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkiyə Cumhuriyyətinin xeyriyyəçi-maarifpərvər «ÇAĞ» Öyrətim İşlətmələri M.M.M. arasında bağlanmış 4 senyabr 1992-ci il tarixli Niyyət Protokoluna, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 13 may 1994-cü il tarixli 308 saylı əmrinə və Sumqayıt şəhər İcra Hakimyyətinin 16 sentyabr 1992-ci il 943 saylı sərəncamına əsasən fəaliyyətə başlamışdır. (6)

Liseyimizdə təlim-tərbiyə prosesi Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Təhsil Qanununa, Ümumtəhsil Məktəbələrinin Nümunəvi Əsasnaməsinə, Azərbaycan-Türk Özəl Liseylərinin Əsasnaməsinə və Liseyin Nizamnaməsinə, Azərbaycan Respublikasının digər qanunlarına, qanunvericilik aktlarının tələblərinə uyğun olaraq Təhsil Nazirliyi, Şəhər İcra Haimyyəti, Şəhər Təhsil şöbəsi və «ÇAĞ» Öyrətim İşlətmələri M.M.M. Azərbaycan-Türk Özəl Liseylərinin Baş İdarəsi ilə əlaqəli fəaliyyət göstərir.

Lisey 16 ildir ki fəaliyyət göstərir. Bu müddət ərzində Liseydə çox dəyişikliklər edilmişdir. Liseyin binası isti və soyuq su ilə tam təmin edilmiş, istilik sistemi təzələnmiş, kanalizasiya, elektrik xətləri yenidən çəkilmişdir. Lisey-təlim-tərbiyə prosesini günün tələbləri səviyyəsində qurmaq üçün hər bir şəraiti olan tədris müəssisəsidir.

Liseyə 6-cı sinifi bitirmiş şagirdlər test imtahan yolu ilə qəbul olunurlar. Hazırda Liseydə Sumqayıt və Bakı şəhərləri ilə yanaşı Respublikanın müxtəlif rayonlarından gələn 318 şagird təhsil alır.

Lisey internat tiplidir, 180 nəfərlik yeri olan yataqxanası vardır. Qalan şagirdlər isə öz evlərində yaşayırlar. Yataqxanada şagirdlər hər cür komunal-məişət, tibbi və iaşə xidmətləri ilə əhatə olunmuşlar. (7)

Liseydə təbiət elmləri (Riyaziyyat, Fizika, Kimya, Biologiya) ingilis dilində tədris edilir, şagirdlər kompyuter, informatika və proqramlaşdırma sahəsində sistemli biliklər alırlar. Buna görə də Liseyə qəbul olan şagirdlər 7-ci sinifdə İngilis dilindən xüsusi hazırlıq keçirlər və müxtəlif fənnləri İngiliscə öyrənəcək səviyyədə bilik, bacarıq və vərdişlər qazanmış olurlar. IX-XI siniflərdə şagirdlər seçdikləri ali məktəb və ixtisaslara görə dəqiq və humanitar siniflərə bölünürlər.

Pedaqoji kollektiv öz işini təkcə dərs deməklə bitmiş hesab etmir. Tez-tez ədəbi-bədii gecələr, görüşlər və digər mədəni-kütləvi tədbirlər keçirilir. Bilik Bayramı münasibəti ilə Cumhuriyyətlərimizin Müstəqillik Günü, Milli Dirçəliş Günü, Konstitusiya Günü, Dünya Azərbaycanlılarının Həmrəylik Günü, Şəhidlər Gününə həsr edilmiş tədbirlər vaxtaşiri keçirilir.

Şagirdlərin Vətənpərvərlik tərbiyyəsi daimi diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikasının dövlət rəmzləri şagirdlərə öyrədilir. Sinif otaqlarında və məktəbin giriş foyesində Azərbaycan Respublikasının rəmzlərini əks etdirən əyani vəsaitlər açılmışdır.

«Qocalar və ahıllar günü» münasibəti ilə yardıma ehtiyacı olan insanlara da şagirdlər liseyin Qızıl aypara cəmiyyətinin vasitəçiliyi ilə hər il maddi yardım göstərmişlər.

Bu vaxtadək liseyin məzunu olmuş şagirdlərdən 80-nəfəri dünyanın müxtəlif ölkələrindəki ən aparıcı ali təhsil ocaqlarında təhsil almışlar. Hər il liseyi bitirən məzunların 100%-i Ali Təhsil ocaqlarına daxil olurlar.

Liseyin şagirdləri dünya olimpiadalarında Respublikanın şərəfini qoruyaraq 20-yədək qızıl, gümüş və bürünc medalla Vətənə üzüağlıqla qayıtmışlar.

Sumqayıt Özəl Türk Liseyi 1992-ci ildə fəaliyyətə başlasa da Dünya Beynəlxalq olimpiada və layihələrdə iştirakı 1997-ci ildən başladı. Belə ki, 1997-ci ildə Liseyin şagirdi Cəlal Qurbanov Türkiyənin İstanbul şəhərində keçirilən «Beynəlxalq Fizika» olimpiadasında yüksək bilik və bacarığı ilə I yeri əldə etmişdir.

Liseyin Dünya Beynəlxalq olimpiada və layihələrdə iştirakı 1998-1999-cu illərdə olmasa da, 2000-ci ildə yenidən Liseyin bir neçə məzunu bu sahədə öz uğurları ilə seçildilər. Belə ki, Kamil Nemətov və Afiq Həbibov Türkiyənin Antaliya şəhərində keçirilən «Riyaziyyat layihə» yarışmasında hər ikisi III yeri əldə etmişlər. Bundan başqa Liseyin digər məzunu Elvin Əkbərov Türkiyədə keçirilən «Fizika Beynəlxalq layihə yarışmasında» II yerin sahibi olmuşdur.

2001-ci ildə Liseyin Beynəlxalq layihə yarışlarında mövqeyi daha da artmışdır. Liseyin şagirdi Elşən Qasımov və Vüqar Zeynalov Türkiyədə keçirilən «Biologiya Beynəlxalq layihə» yarışmasında hər ikisi II yerin sahibi olmuşlar. Liseyin digər şagirdi İsa Əliyev Türkmənistanın Aşqabad şəhərində keçirilən «İnformatika beynəlxalq layihə» yarışmasında III yeri qazanmışdır. (5; s 3)

2002-ci ildə Lisey Dünya və Beynəlxalq xarakterli olimpiadalarda yenə öz uğurları ilə seçilmişdir. Belə ki, Liseyin şagirdi Tural Cəfərov Türkiyənin Antaliya şəhərində keçirilən «Riyaziyyat Beynəlxalq olimpiadasında» III yeri; Murad Qurbanov Latviyada keçirilən «Beynəlxalq Biologiya Olimpiadasında» III yeri; İsa Əliyev Cənubi Koreyada keçirilən «Kompüter Beynəlxalq Olimpiadasında» IV yeri; Cavid Həbibov Şotlandiyada keçirilən «Riyaziyyat Dünya Olimpiadasında» IV yeri əldə etmişlər.

2003-cü ildə Liseyin Dünya və Beynəlxalq xarakterli Olimpiada və layihələrdə iştirakı baxımından uğurlu olmuşdur. Belə ki, Liseyin şagirdi Cavid Həbibov Yaponiyanın Tokio şəhərində keçirilən «Riyaziyyat Dünya olimpiadasında» II yeri; Rasim İsmayılov Qazağıstanın Almaata şəhərində keçirilən «Riyaziyyat Beynəlxalq layihə» yarışmasında II yeri əldə etmişlər.

2004-cü ildə isə Liseyin iki əsas məzunu Beynəlxalq xarakterli yarışda xüsusilə seçilmişdir. Bunlardan Cavid Həbibov Yunanıstanda keçirilən XXXXV «Beynəlxalq Riyaziyyat olimpiadasında» iştirak etmişdir. Digər şagird Elşad Müzəffərli Türkiyədə keçirilən «Beynəlxalq Türk dili olimpiadasında» gümüş medala layiq görülmüşdür.

2005-ci ildə də Liseyin şagirdləri Beynəlxalq xarakterli Olimpiadalarda yenə də fəallıqları ilə seçilmişlər. Belə ki, Abromov Denis Türkiyədə keçirilən «Beynəlxalq Ekologiya layihəsi» yarışmasında II yeri; Babanlı Eltac və Hüseynov Fərid Türkiyədə keçirilən «Beynəlxalq Türk dili olimpiadasında» hər ikisi gümüş medala layiq görülmüşlər. Liseyin digər şagirdi olan Bədirov Altay Çinin Pekin şəhərində keçirilən «XVI Beynəlxalq Biologiya Olimpiadasında» Bürünc medal qazanmışdır. (6)

Lisey rəhbərliyinin və pedaqoji kollektivinin məqsədi yüksək dünya görüşlü, mədəni, intellekt səviyyəsi yüksək, Azərbaycanın şərəfini layiqincə qoruyacaq gənclər yetişdirməkdir.

Şagirdlərin hərtərəfli inkişafı üçün hər cürə şərait yaradılmış liseydə yüksək ixtisaslı türk müəllimləri ilə yanaşı Azərbaycanlı müəllimlər də çalışır.

Məktəb şəhər təhsil sisteminin ayrılmaz bir subyekti kimi şəhər həyatı və təhsil sahəsində keçirilmiş tədbirlərində fəal iştirak edir.

Sumqayıt şəhərinin elmi əlaqələrində ümumilli liderimiz Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli fərmanı ilə Azərbaycan Sənaye İnstitutunun bazasında yaradılmış Sumqayıt Dövlət Universitetinin də xüsusi yeri var. 2001-ci ildən universitetdə «Elmi xəbərlər» məcmuəsi nəşr edilir. Sumqayıt Dövlət Universitetinin alimləri MDB-nin, eləcə də Fransanın Nitse, Sorbon Universitetləri, Türkiyənin İstanbul Texniki Universiteti, Bursadakı Uludağ Universiteti, Pakistanın Sidli və Mehran Universitetləri ilə

əməkdaşlıq edirlər. Universitetdə ingilis dilinin öyrənilməsinə xüsusi diqqət yetirilir. Böyük Britaniyanın ölkəmizdəki səfirliyi tərəfindən böyük çeşidli ədəbiyyat və müasir texniki ləvazimatlarla təchiz olunmuş mərkəz, «Statoyl» və «Unikal» neft şirkətlərinin sponsorluğu ilə xüsusi kitabxana və resurs mərkəzi yaradılmışdır. Bu gün Sumqayıt Dövlət Universiteti 10 müxtəlif adda xarici elmi jurnallar alır. «Tempus proqramı çərçivəsində Avropa standartlarına uyğun» ali mühəndis hazırlığı həyata keçirilir. SDU Almaniya və Hollandiya Universitetləri ilə əməkdaşlıq edir. Avropa Şurasının maliyyə dəstəyi ilə «Tempus» proqramı çərçivəsində ən müasir Avropa standartları ilə «Elektroenergetika və «Avtomatlaşdırma» və «informasiya texnikası» ixtisasları üzrə bakalavr hazırlığını həyata keçirir. (1; s 28-29)

### *ƏDƏBIYYAT:*

1.“Xalq nəzarəti”-//II buraxılış// Bakı, 2004
2.“Məslək”-13 sentyabr, N8 //Bakı, 2002
3.“Sabah”-30 noyabr, N 14// Bakı, 2004
4.Sumqayıt şəhəri, 14 saylı məktəbin illik hesabatı, 2000-ci il
5.Sumqayıt şəhəri Təhsil şöbəsinin illik hesabatı, 2002-ci il
6.Sumqayıt Azərbaycan-Türkiyə özəl liseyi www Sumqayıt liseyi
7.Sumqayıt Azərbaycan-Türkiyə özəl liseyi: e-mail: info@Sumqayıtliseyi.com
8.Sumqayıt Türk liseyinin illik hesabatı.
9.“Sumqayıt”-/Xüsusi buraxılış, N 1//2004

**УЛДУЗ КУЛИЕВА**
***Диссертант Института истории Национальный Академии Наук Азербайджана им. А. Бакыханова***

## ПОТЕНЦИАЛЬНАЯ РОЛЬ ГОРОДА СУМГАИТА В РАЗВИТИИ МЕЖДУНАРОДНЫХ СВЯЗЕЙ ПО ОБРАЗОВАНИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

В статье рассматривается роль образовании с системе развитии нашей страны. В частности, связи некоторых дошкольных учреждений, средних школ, лицеев и Сумгаитский Государственных университет в этом аспекте провели большие работы. Примечательно, что выпускники Сумгаитского Тюрского лицея занимая ведущие места в различных олимпиадах в зарубежных странах, представляет Азербайджан довольно успешно.

Автор на основе архивных материалах выявил основные проекти и их конкретные результат, которые проводятся в системе образования города Сумгаита.

Последние 10 лет, тем самым становится вполне ясно, что Сумгаит занимает одно из ведущих мест в проведенных реформах по образовании в нашей стране.

**ULDUZ GULIYEVA**
***The author of dissertation of Institute of History national Akademus of Sciences of Azerbaijan name of A. Bakikhanov.***

## A POTENTIAL ROLE OF A CITY OF SUMGAIT IN DEVELOPMENT OF INTERNATIONAL CONTACTS OF AZERBAIJAN RESPUBLIC BY TRAINING

In article formation role in system development of our country is considered. In particular the connected some preschool centers, high schools, lycees and Sumgait state University in this aspect have spent the big works/

It is remarkable that graduates of Sum gait Turkish lycee taking leading place in the Various Olympic Games in foreign countries have presented Azerbaijan successfully enough.

The author on the basis of archival materials has revealed the basic projects and their concrete results which are spent in an education system of a city of Sumgait last 10 years. Thereby it becomes quite clear that Sumgait occupies in the spent reforms at formation of our country.

***Rəyçilər: S.Sayadov, t.e.d.M.Qasımlı.***

***AMEA-nın Tarix İnstitutunun Elmi Şurasının 17 iyun 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №09).***